

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 38 (20.939)

27 fevral 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyirmi iki il əvvəl – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətmişlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.



# Naxçıvanda Xocalı faciəsinin anım mərasimi keçirilmişdir





Fevralın 26-da Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar Naxçıvan şəhərindəki Xatirə Kompleksində mərasim keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xatirə Kompleksindəki soyqırımı abidəsinin önünə gül qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmişdir.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ziyalılar, ictimaiyyətin nümayəndələri də Xocalıda erməni vəhşiliklərinin qurbanı olmuş soydaşlarımızın xatirəsini yad etmiş, soyqırımı abidəsinin önünə gül qoymuşlar.

Anım mərasimində qeyd edilmişdir ki, erməni millətçiləri əzəli Azərbaycan torpaqları hesabına mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün dəfələrlə azərbaycanlılara qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə həyata keçirmişlər. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı bu siyasətin davamı, erməni qəddarlığının daha bir təzahürüdür. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayı 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etdi. Dinc sakinlər xüsusi amansızlıqla qətlə yetirildi. Bir gündə 613 nəfər işgəncə ilə öldürüldü. Onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar idi. Xocalı faciəsində 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər əlil olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 1275 nəfər əsir götürülmüşdür. Soyqırımı nəticəsində bir günün içində Xocalı adlı şəhər yer üzündən silinmişdir. Soyqırımı aktı zamanı Xocalıda qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmiş, ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə belə, aman verilməmişdir.

Qeyd olunmuşdur ki, Xocalı soyqırımına ilk hüquqi-siyasi qiyməti ümummilli liderimiz Heydər Əliyev vermişdir. Ulu öndərimiz hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanat verərək Xocalı soyqırımını törədənləri ittiham etmişdir. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü il fevralın 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Ümummilli liderin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-da saat $17^{00}$-də Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımı barədə demişdir: ***"Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının, Xocalı həqiqətlərinin dünyada tanıdılması, Ermənistanın həyata keçirdiyi bu cinayətin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülmüşdür. Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı Nümayəndəliyi tərəfindən "Xocalıya ədalət" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyası təsis olunmuşdur. 2010-cu ildə İslam Konfransı Təşkilatına üzv ölkələrin parlamentləri "Xocalıya ədalət" kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul etmişdir. Bu istiqamətdə görülən işlərin davam etdirilməsi və "Xocalıya ədalət" kampaniyasının beynəlxalq səviyyədə genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il fevralın 13-də "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır.




Bu gün Xocalıda ermənilər tərəfindən törədilən soyqırımını beynəlxalq ictimaiyyət hiddətlə qarşılayır, dünyanın hər yerində bu soyqırımına etiraz edənlərin sayı ildən-ilə artır. Artıq Meksika, Pakistan, Kolumbiya, Çexiya, Peru, Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırımı kimi tanımış, Rumıniya, Kanada və İordaniya parlamentləri isə bu barədə xüsusi bəyanat qəbul etmişlər. Bununla yanaşı, Amerika Birləşmiş Ştatlarının Nyu-Cersi, Nyu-Meksiko, Meyn, Texas, Corciya, Massaçusets, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, Vest Virciniya, Konnektikut və Florida ştatlarının qanunverici orqanları da Xocalı faciəsinin soyqırımı kimi tanınması barədə qərar çıxarmışdır.

Tədbirin aparıcıları qeyd etmişlər ki, Xocalı soyqırımının təşkilatçıları və icraçıları layiqli cəzalarını almalı, insanlıq əleyhinə törədilmiş bu cinayət cəzasız qalmamalıdır. Heç kim unutmamalıdır ki, fevralın 26-sı təkcə faciə tariximiz deyil, eyni zamanda ərazi bütövlüyümüzün bərpası və işğala son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir".***

Bu gün Azərbaycan sürətlə inkişaf edir, iqtisadi qüdrətini artırır, dünya dövlətləri içərisində öz layiqli mövqeyini daha da möhkəmləndirir. Artıq torpaqlarımızı mətinliklə müdafiə edən, ərazi bütövlüyümüzün təminatçısı olan müzəffər ordumuz və bu ordunun Ali Baş Komandanı vardır. Xalqımız əmindir ki, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımız tezliklə azad olunacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə, Xocalıda dalğalanacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Xocalı soyqırımının 22-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Təbrizdə Xocalı soyqırımının növbəti ildönümü münasibətilə tədbir keçirilmişdir



***Fevralın 23-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda Xocalı soyqırımının 22-ci ildönümü münasibətilə anma mərasimi keçirilmişdir.***

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Mərasimdə çıxış edən Baş konsul Əli Əlizadə demişdir ki, xalqımız dəfələrlə erməni millətçiləri tərəfindən etnik təmizləmə və soyqırımına məruz qalmış, doğma torpaqlarından didərgin salınaraq qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur edilmişdir. XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı bu başımdan daha dəhşətli olmuş, yüzlərlə günahsız insan öldürülmüş, əsir götürülmüş, mədəniyyət müəssisələri, sosial-məişət obyektləri dağıdılmışdır. Xocalı şəhərində azərbaycanlılara aid bütün tarixi izlər, milli-mədəniyyət nümunələri bir gecədə məhv edilmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən “Xocalı Soyqırımı Günü haqqında” Qərarın qəbul olunduğunu diqqətə çatdıran Əli Əlizadə hazırda ölkəmizdə soyqırımına dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən danışmış, soyqırımını tanıyan dövlətlərin və beynəlxalq təşkilatların sayının ilbəil artdığını bildirmişdir.

Baş konsul Xocalı soyqırımına tezliklə Azərbaycana dost və yaxın olan digər ölkələr tərəfindən də hüquqi-siyasi qiymətin verilməsinin vacibliyini qeyd etmişdir.

Şərqi Azərbaycan valisinin siyasi və təhlükəsizlik məsələləri üzrə müşaviri Seyid Yusif Bəşiri, İranda yaşayan azərbaycanlı iş adamı, Qarabağ müharibəsi veteranı Vahid Şərafətdinov çıxış edərək Xocalı soyqırımını insanlığa qarşı cinayət kimi dəyərləndirmişlər.

Sonra erməni təcavüzündən və Xocalı soyqırımının dəhşətlərindən bəhs edən film nümayiş etdirilmiş, faciə qurbanlarının xatirəsinə ehsan verilmişdir. Xocalı faciəsindən bəhs edən fotostendə, eləcə də kitab, jurnal və bukletlərdən ibarət sərgiyə baxış olmuş, soyqırımından bəhs edən əyani vəsaitlər mərasim iştirakçılarına paylanmışdır.

Mərasimdə İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, Şərqi Azərbaycan vilayətinin rəsmi şəxsləri, Türkiyənin Təbrizdəki Baş Konsulluğunun əməkdaşları, kütləvi informasiya vasitələrinin və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

## Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir



Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevralın 26-sı saat $17^{00}$-də Azərbaycan Respublikasının bütün ərazilərində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Dünən Naxçıvan Muxtar Respublikasında da Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, nəqliyyatın hərəkəti dayandırılmış, avtomobillərdən səs siqnalları verilmişdir.

Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilmişdir.

**Xəbərlər şöbəsi**

*Heydər Əliyev adına Hərbi Lisey – 10*

## Mötəbər hərbi təhsil müəssisəsinə çevrilən Heydər Əliyev adına Hərbi Lisey hərtərəfli inkişaf yolundadır

***Hər bir dövlətin müstəqil yaşaması üçün onun güclü ordusu olmalıdır. Ərazi bütövlüyünün təminatçısı olan ordunun formalaşdırılması isə ixtisaslı hərbi kadrların hazırlanmasından başlayır. Ümummilli liderimiz Heydər Əliyev istər ölkəmizə rəhbərliyinin birinci, istərsə də ikinci dövründə ordu quruculuğunu üstün istiqamət kimi müəyyənləşdirmiş, gənc hərbi kadrların hazırlanması istiqamətində konkret tədbirlər görmüşdür.***



Bu gün ölkəmizdə Silahlı Qüvvələrimiz üçün peşəkar kadrlar hazırlayan geniş imkanlara malik hərbi təhsil ocaqları fəaliyyət göstərir. 1971-ci ildə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradılmış, Moskvanın ciddi narazılığına baxmayaraq, hərbi məktəb öz fəaliyyətini genişləndirmiş, ulu öndərin təşəbbüsü ilə yüzlərlə azərbaycanlı gənc Sovet İttifaqının ali hərbi məktəblərinə təhsil almağa göndərilmişdir. Bu dövrdə yaradılan möhkəm təməl ölkəmiz müstəqillik qazandıqdan sonra milli ordu quruculuğunun əsasını təşkil etmişdir.



Müstəqillik illərində də milli ordunun peşəkar zabit kadrları ilə təmin olunmasına və hərbi təhsilin inkişafına ciddi diqqət yetirilmişdir. Ümummilli liderimizin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılmış, qədim Azərbaycan torpağı olan Naxçıvanda ixtisaslı hərbi kadrların yetişdirilməsinə başlanmışdır. 1999-cu ildə filialın yeni tədris korpusunun açılışında iştirak edən ümummilli liderimiz demişdir: ***“Cəmşid Naxçıvanski adına Hərbi Liseyin burada filialının yaradılması zərurəti ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi”.***

Ordunun maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, gənc hərbi kadrların yetişdirilməsi bu gün də Azərbaycanın dövlət siyasətində əhəmiyyətli yer tutur. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Liseyin yaradılması da bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərin daha bir təzahürüdür.

Hərbi liseydə geniş quruculuq işləri aparılmış, ümummilli liderin büstü ucaldılmış, ikimərtəbəli qərargah binası, yeməkxana, tibb məntəqəsi, yeni tədris korpusu istifadəyə verilmiş, bir sözlə, müasir hərbi-tədris şəhərciyi yaradılmışdır. 750 yerlik liseydə ən müasir avadanlıqlarla təchiz edilmiş sinif otaqları, laboratoriyalar, hərbi kabinələr, linqafon və kompüter sinifləri, elmi, bədii, siyasi, hərbi və tarixi ədəbiyyatlarla, ensiklopedik nəşrlərlə təmin olunmuş zəngin kitabxana vardır. Qərargah binasının birinci mərtəbəsində “Heydər Əliyev Muzeyi” fəaliyyət göstərir. Liseydə kursantların fiziki hazırlığı da diqqət mərkəzində saxlanılır. Belə ki, hərbi liseydə müasir avadanlıqlarla təchiz olunmuş qapalı və açıq idman kompleksləri, mini-futbol meydançası vardır. Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2005-ci ilin dekabrında liseydə yaradılan şəraitlə tanış olmuş, kursantlar qarşısında çıxış edərək demişdir: ***“Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar, lazım gələrsə, Azərbaycanın ərazi bütövlüyünün hərb yolu ilə bərpa olunmasında iştirak edəcəklər”.***

Heydər Əliyev adına Hərbi Lisey fəaliyyətə başladığı dövrdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuşdur.



Ali Məclisin Sədri cənab Vasif Talıbov ötən il kursantlarla görüşərkən onlara tövsiyələrini verərək demişdir: ***“Özünü hərbi peşəyə həsr etmək yolunu seçən hər bir kursantın qarşısında mühüm vəzifələr dayanır. Siz təhsil aldığınız ali hərbi məktəblərdə və xidmət edəcəyiniz hərbi hissələrdə nümunə olmalısınız. Milli Ordumuzun zabiti kimi ulu öndərimizin bizə əmanət etdiyi dövlət müstəqilliyimizi, qüdrətli və çiçəklənən Azərbaycanımızı şərəflə qorumaq və keşiyini çəkmək qarşınızda duran bir nömrəli vəzifə olmalıdır. Bunun üçün siz fiziki cəhətdən sağlam, savadlı və yetkin gənclər kimi yetişməlisiniz. Vətənə və dövlətə, ümummilli liderimizin ideyalarına və Ali Baş Komandana sədaqətli olmalısınız. Gələcəkdə harada xidmət etməyinizdən asılı olmayaraq, torpaqlarımızı göz bəbəyi kimi qorumalı, Azərbaycan Silahlı Qüvvələrinin zabiti şərəfini uca tutmalısınız”.***

Ümummilli liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan olan Heydər Əliyev adına Hərbi Lisey Silahlı Qüvvələrin kadr təminatında uğurla fəaliyyət göstərir. Bu gün liseyə nəinki muxtar respublikadan, həmçinin Azərbaycanın digər bölgələrindən də gənclər təhsil almaq üçün müraciət edirlər. Artıq lisey öz ətrafında yüzlərlə vətənpərvər gənci birləşdirən müasir təhsil müəssisəsinə çevrilmişdir. Hazırda liseydə 660 kursant təhsil alır. Fəaliyyəti dövründə hərbi liseyi bitirən 1941 kursantdan 1857-si ali hərbi məktəblərə qəbul olunmuşdur. Onlardan 1000-ə yaxını Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müxtəlif zabit rütbələrində xidmət edir. Liseyin məzunu olmuş kursantlar bu gün həm də Rusiya Federasiyasında və Türkiyə Respublikasında ali hərbi təhsillərini davam etdirirlər.

Hərbi təhsil müəssisəsində tədrisin keyfiyyətini daha da artırmaq, kursantları mənəvi-psixoloji cəhətdən hazırlıqlı və vətənpərvər ruhda yetişdirmək üçün ardıcıl tədbirlər görülür. İl boyu keçirilən test-sınaq imtahanlarında, açıq və yoxlama dərslərdə kursantların biliyi, fəallıqları yoxlanılır, nitq mədəniyyətinə yiyələnmələrinə, xarici dilləri öyrənmələrinə diqqət yetirilir.



***2014-cü il muxtar respublikamızda “Muxtariyyət ili” elan edilmişdir. Heydər Əliyev adına Hərbi Liseyin kollektivi çalışır ki, belə bir əlamətdar ildə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirsin. Məqsəd təkcə fiziki cəhətdən sağlam, savadlı, yetkin gənclər deyil, həm də Vətənə, dövlətə, ən əsası isə ümummilli liderimiz Heydər Əliyevin ideyalarına və Ali Baş Komandana sədaqətli gənclər yetişdirməkdir. Qədim Naxçıvan diyarı bu gün ölkəmizdə incəsənətə, mədəniyyətə, ədəbiyyata, sosial-iqtisadi inkişafa töhfə verdiyi kimi, öz tarixi ənənəsinə sadiq qalaraq hərb sənətinə də layiqli töhfələrini verməkdədir.***

**“Şərq qapısı”**

# Yeni ilin könülaçan bəhrələri



## Bu bəhrələr Sələsüz kəndinə müasirlik gətirib

***Həyatın dəyişilməz qanunu kimi günlər aylara, aylar illərə çevrilir. Ötən hər gün, hər ay, hər il isə ömrümüzə, həyatımıza öz izlərini yazır. Son illər bu izlər hər birimizin yaddaqalan xatirələri ilə müşayiət olunur. Çünki muxtar respublikamızda son 18 ildə sosial-iqtisadi inkişafın dinamik xarakter alması hər bir naxçıvanlının həyat tərzini kökündən dəyişdirib, yaşayış səviyyəsini xeyli yüksəldib. Hər addımda rastlaşdığımız yeniliklər üzə gülür.***

2013-cü ili – "Heydər Əliyev ili"ni daha uğurlu illərdən biri hesab edə və qətiyyətlə deyə bilərik ki, biz bu gün xalqımızın dahi oğlu Heydər Əliyevin bir vaxtlar arzuladığı Naxçıvanda yaşayır, bu qədim yurd yerinin ulu keçmişi ilə qürur duyduğumuz kimi, bu günü ilə də fəxr edirik. Bəs qəlbimizi dağa döndərən, qurub-yaratmaq əzmimizi yüksəldən amillər hansılardır? "Heydər Əliyev ili"ndə muxtar respublikada neçə illərdir, dinamik xarakter almış tikinti-quruculuq işlərinin davam etdirilməsi, yeni emal və istehsal sahələrinin yaradılması, sahibkarlığın inkişafında yeni mərhələyə qədəm qoyulması, aqrar sahədə qazanılan uğurların artırılması, məşğulluğun təmin edilməsi və saymaqla qurtarmayan digər reallıqlar... Bu cəhətdən yenə də təhsil sahəsi öndə gedir. Bu da səbəbsiz deyil. Ulu öndərimiz bu sahəyə yüksək qiymət verərək deyirdi: ***"Təhsil uşaqları, gəncləri gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis kimi hazırlayan müqəddəs bir sahədir".***

Bu gün muxtar respublikada ümummilli liderin təhsil sahəsində müəyyənləşdirdiyi strategiyanın uğurla davam etdirilməsinin nəticəsidir ki, 2013-cü ildə tikinti, yenidənqurma və əsaslı təmir işlərindən sonra, ümumilikdə, 9 min 164 şagird yerlik 25 tam orta məktəb binası istifadəyə verilmişdir. Bu proses 2014-cü ildə də davam etdirilir. Ötən dövr ərzində ilin quruculuq ərməğanlarından biri, fevral ayının 10-da istifadəyə verilən Şahbuz rayonunun Sələsüz kənd tam orta məktəbinin yenidən qurulan binası bu yaşayış məntəqəsinin sakinlərinə böyük dövlət qayğısının təzahürü kimi dəyərləndirilmişdir. Bu günlərdə həmin tədris ocağında olduq. Məktəbin direktoru Vilayət Nəsirov belə böyük qayğı üçün kənd sakinləri, məktəbin müəllim və şagird kollektivi adından dövlətimizə dərin minnətdarlığını bildirdi.

Məlumat üçün bildirək ki, 2 mərtəbədən ibarət olan məktəb binası 234 şagird yerlikdir. Yenidənqurma işləri çərçivəsində məktəbin fasadı və interyeri yenilənmiş, tədrisin səviyyəsinin yüksəldilməsi, müasir metodlarla aparılması üçün lazımi şərait yaradılmışdır. Müəllim və şagird kollektivinin ixtiyarına 3-ü elektron lövhəli olmaqla, 13 sinif otağı, kimya-biologiya laboratoriyası, hərbi kabinə, kompüter otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları verilmişdir.

Kompüter otağındakı kompüterlərdən istifadə imkanları yüksəldilmiş, onlar internetə qoşulmuş, elektron lövhəli siniflərdə dərslərin interaktiv tədrisinə şərait yaradılmışdır.

Məktəbin direktoru ilə söhbətdə öyrəndik ki, Sələsüz kənd tam orta məktəbi ötən tədris ilində uğurlu nəticələr qazanmış, məzunlardan 5-i ali məktəblərə qəbul olunmuşdur. Lakin kollektiv bunu son hədd hesab etmir. Açılış mərasimində Ali Məclis Sədrinin ***"Kənd məktəbində yaradılan şərait təhsil uğurlarının artırılmasına imkan verəcəkdir. Ona görə də pedaqoji kollektiv yaradılan təhsil infrastrukturundan səmərəli istifadə etməli, şagirdlər təhsil almaqla yanaşı, həm də əsl vətəndaş kimi yetişməlidirlər"*** tövsiyəsinə əməl etmək üçün başa çatmaqda olan dərs ilinin nəticələrinin daha yüksək olmasına çalışılır.

Muxtar respublikada mahiyyət və məzmunca yeni tikililər olan kənd mərkəzlərinin inşasına ötən il də ciddi önəm verilmişdir. İdarəetmənin vahid mərkəzdən təşkilini və əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsini təmin edən belə mərkəzlərin sayı getdikcə artır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, 2013-cü ildə 20 kənd mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, ümumilikdə, belə obyektlərin sayı 104-ə çatdırılmışdır. 2014-cü il fevral ayının 10-da növbəti belə mərkəzin – Sələsüz Kənd Mərkəzinin açılışı olmuşdur. Mərkəz məktəblə bir ərazidə yerləşir. Kənddə dövlət qurumlarının fəaliyyəti üçün lazımi şərait yaradılan ikimərtəbəli mərkəzdə rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və kənd mədəniyyət evinin işçiləri üçün iş otaqları ayrılmış, 83 yerlik iclas zalında müxtəlif tədbirlərin keçirilməsinə şərait yaradılmışdır.

Sələsüz kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Vilayət Ələkbərov muxtar respublikada aparılan quruculuq işləri nəticəsində Sələsüz kəndinin də abad yaşayış məntəqəsinə çevrildiyini qürurla bildirir. Deyir ki, son illər muxtar respublikamızın kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirlərinin aparılması sosial-iqtisadi inkişafın göstəricisidir. Bu cəhətdən Sələsüzdə bu tədbirlərin reallaşması hər bir kənd sakinini ürəkdən sevindirmiş, onları muxtar respublikanın iqtisadi qüdrətinin daha da gücləndirilməsinə töhfələrini verməyə səfərbər etmişdir.

Mərkəzdə yerləşən rabitə evində 384 nömrəlik yeni nəsil ATS-in quraşdırılması Sələsüzlə yanaşı, Mərəlik və Türkeş kəndlərində də abonentlərə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmişdir.

Əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında kəndlərdə istifadəyə verilən həkim ambulatoriyalarının müstəsna əhəmiyyəti danılmazdır. Ona görə də muxtar respublikamızda səhiyyə infrastrukturu müasirləşdirilir, tibb müəssisələrinin şəbəkəsi genişləndirilir, bu məqsədlə səhiyyə ocaqları üçün inşa olunan yeni binaların sayı getdikcə artır. Sələsüz kəndində istifadəyə verilən həkim ambulatoriyasında müasir tibbi avadanlıqlar quraşdırılmış və lazımi şərait yaradılmışdır. Ambulatoriyada tibb bacısı vəzifəsində çalışan Xədicə Həsənova son illər muxtar respublikada səhiyyə sahəsində görülən işlər, aparılan islahatlar, tibb personalının ixtisas səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirləri insanların sağlamlığına göstərilən qayğı kimi dəyərləndirdi, Sələsüzdə inşa olunan həkim ambulatoriyasının belə qayğının ifadəsi olduğunu bildirdi.

Ambulatoriyada çalışan ağxalatlı peşə sahibləri qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində səylərini əsirgəmirlər. Onlar profilaktik tədbirlərin həyata keçirilməsində, əhalinin maarifləndirmə işinin gücləndirilməsində fəallıq göstərirlər.

Sələsüzlülərə və Sələsüz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin tərkibində olan Mərəlik sakinlərinə hərtərəfli dövlət qayğısının ifadəsidir ki, həyata keçirilən kompleks quruculuq tədbirləri çərçivəsində xidmət mərkəzləri də istifadəyə verilmişdir. Bu, hər iki kəndin sakinləri tərəfindən rəğbətlə qarşılanmışdır.

* * *

Sələsüz kəndində istifadəyə verilən yeni quruculuq obyektləri ilə tanışlıqdan, bu ünvanlarda çalışan insanlarla söhbətlərdən sonra bir neçə kənd sakini ilə görüşdük. Onların ürək sözlərini dinlədik.

Təqaüdçü müəllim Valeh Pənahov: – Əvvəlcə onu qeyd edim ki, Sələsüzdə bundan əvvəl də quruculuq tədbirləri həyata keçirilib. Məktəb, icra nümayəndəliyi üçün binalar inşa edilib. Kənd sakinləri üçün 7 fərdi mənzil tikilib. 2014-cü ildə açılışları olan yeni obyektlər burada görülmüş işlərin davamıdır və bütün sakinlərin ürəyincədir. Bunun üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımızı bildiririk.

Kənd sakini Sabir Abbasov: – Sələsüz bu gün müasir Azərbaycan kəndinin canlı nümunəsidir. Kənddə fəaliyyət göstərən bütün dövlət qurumları üçün yaradılmış şərait konkret bir ünvanın timsalında insana qayğının ifadəsidir.

Kənd sakini Xatirə Əliyeva: – Bu gün heç bir sələsüzlü yaşayış tərzindən narazılıq edə bilməz. Çünki onların uzun illər yaşadığı problemlər tamamilə öz həllini tapıb. Qalır ki, hər bir sakin yaradılmış şəraitdən lazımınca istifadə etsin, muxtar respublikanın sosial-iqtisadi inkişafına töhfəsini versin. Sələsüzlülər də torpağa bağlı adamlardır, zəhmətdən qorxmurlar. Odur ki, kənd təsərrüfatını inkişaf etdirir, həm daxili bazara töhfələrini verir, həm də özlərinin gün-güzəranlarını yaxşılaşdırırlar.

**Muxtar MƏMMƏDOV**

***Arzusunda olduqlarımızı biz yaradırıq. Ata və anaların "müəllifi" olduğu yaxşılar və pislər sabahkı cəmiyyətindir, sabahkı dövlətindir, sabahkı Vətənindir. Övladlarımızın yaxşısı ilə öyünərkən qürurla deyirik: "Gələcək onlarındır". Gələcəyin övladlarımız üçün işıqlı, xoşbəxt olmasından ötrü bu gün biz onların həyatında var olmalıyıq.***

# Övladlarımızın könül mülkündə Vətən abidəsi ucaldaq

Hər bir valideyn öz övladının sağlam və gümrah, bilikli və dünyagörüşlü böyüməsini istəyir. Bu gün cəmiyyətimizin də məqsədi buna doğru yönəlmişdir. Övladının fiziki cəhətdən sağlam, gümrah olmasını istəyən valideyn onu həm də mənəvi cəhətdən düzgün yetişdirməli, Vətənə, doğma yurda, torpağa məhəbbət və onun uğurları ilə iftixar hissi keçirmək ruhunda tərbiyələndirməlidir. Ailələrdə uşaqlara Vətənimizlə bağlı ölkəmizdə və xaricdə baş verən mühüm hadisələr obyektiv şəkildə öyrədilməli, bu barədə onlara məlumat verilməlidir. Naxçıvanımızın və onun bölgələrinin dünənini görməyən, bu günündə yaşayan övladlarımıza onun dünənini və bu gününü olduğu kimi anlatmalıyıq. Anlatmalıyıq ki, keçdiyimiz müstəqillik yollarında bu Vətənin vətəndaşı olanların kimliyindən, onların çəkdiyi zəhmətdən, bu qədər gözəlliyin yaradılmasında əməyi olanlardan xəbərdar olsunlar. Anlatmalıyıq ki, vətənpərvər olmaq üçün əməli iş görmək, daşı daş üstə qoymaq, dövlətin apardığı siyasətə öz imkanı daxilində kömək etmək amalı ilə böyüsünlər övladlarımız. Hər birimizə bəllidir ki, bu Vətənin dar günündə kimin dost, kimin düşmən olduğunu yetərincə bilmədiyimizə görə itirdiklərimiz oldu. Amma nə yaxşı ki, Vətənin bir damla suyu, bir ovuc torpağı olmağı bacaran igidlərimiz vardı. Nə yaxşı ki, Tanrının bizə bəxşişi olan ulu öndərimiz Heydər Əliyev vardı. Onu da unutmamalıyıq ki, tale həmişə adamın üzünə belə gülmür. Ona görə də keçmişimizdən ibrət dərsi alıb gələcəyimiz üçün elə təməl yaratmalıyıq ki, səhvlərə yol verilməsin.

Əgər ailələrdə uşaqlara hələ lap körpə ikən Vətənimizin gözəllikləri ananın dili, atanın müdrikliyi ilə aşılanarsa, o valideynlər övladlarının könül mülkündə bir Vətən abidəsi ucalda bilərlər.

Beləcə, zaman-zaman yurdumuzun təbii və insan əli ilə yaradılan gözəlliklərini övladımızın görməsinə, ondan mənəvi zövq almasına nail olarıq. Bu isə istər-istəməz yurd sevgisinin onların könül dünyasında özləri kimi günlərlə, aylarla böyüyüb elə özləri qədər də yaşa dolmasına səbəb olar. Yəqin ki, onda "vətənpərvər ol, Vətəni sev" təbliğatına ehtiyac qalmaz.

Gözəlliklərin yaradılması və qorunması haqqında körpələrimizə lazım olanları nağıllar, şeirlər vasitəsilə verməliyik. Əgər buna nail ola bilsək, onların könlündə səmimi duyğular oyada bilərik.

Əgər atalar, analar xalqımıza məxsus mədəni, mənəvi sərvətlərin qorunub saxlanılmasının vacibliyini həm süfrə başında, həm gəzinti zamanı, həm istirahət saatlarında övladlarına çatdırarlarsa, uşaqlarda hələ erkən yaşlarından vətənpərvərlik hisslərinin formalaşması prosesi başlayar. Bu duyğular, bu hisslər övladımızda gözəl insani keyfiyyətlərin yaranmasına, onun bir şəxsiyyət kimi yetişməsinə güclü təsir edə bilər. Bizim arzumuz da, istəyimiz də bu, deyilmi?

Unutmamalıyıq ki, müəllifi olduğumuz yaxşılar və pislər sabahkı cəmiyyətindir, sabahkı dövlətindir, sabahkı Vətənindir və onu dünyaya bəxş edən ata-ananındır.

Elimizdə illərin, əsrlərin sınağından çıxmış deyimlər var: "Bala baldan şirindir", "Acılığından yemək olmur, şirinliyindən atmaq" və sair kimi onlara dərin məzmunlu ifadələri gündəlik həyatımızda özümüz də tez-tez işlədirik ki, bu da övlad məhəbbətinin, ona olan qayğı və sonsuz məhəbbət hissinin ifadəsidir.

Uşaqlara şirin canını pay verən atalar, analar bilirlər ki, çəkdikləri zəhmət hədər getməyəcək. Axı onların hamısının nazını çəkən, övladlarını boya-başa çatdıran valideynlər bu bəşəri borcu yerinə yetirərkən övladının xoşbəxt gələcəyinə bir işıqlı yol açırlar.

Dünyanın coğrafi xəritələrindəki dünya ölkələrindən başqa, bir də uşaqlıq ölkəsi – uşaq dünyası mövcuddur. "Sıx əhalisi olan" bu dünyada bərabərlik, mehribançılıq, sevinc və kədər böyüklərin dünyasından çox-çox fərqlidir. Bu hüdudsuz, sərhədsiz ölkədə bütün sakinlər bizdən – uğurlu və uğursuz ata-analardan, böyüklərindən asılıdırsa, deməli, onların bizə, bizim qayğımıza ehtiyacı da böyükdür. Uşaqların dünyasını işıqlı, abad görmək istəyiriksə, onların əlindən tutmalıyıq ki, büdrəməsinlər, yıxılmasınlar. Əgər biz onlara bu gün laqeyd, biganə olsaq, onda sabah övladlarımızın mənəvi dünyası kasıb və talan olar. Həmçinin onların iç dünyasından kainata dikilən gözləri "kor" olar.

Uşaqlar valideynlərini dünyada hamıdan və hər şeydən çox istəyirlər, onları hamıdan və hər şeydən üstün görürlər. Elə buna görə də bizim onlara arxa çevirməyimizə, laqeydlik etməyimizə, biganə olmağımıza haqq qazandıracaq bir səbəbimiz ola bilməz. Uşaq dünyasının öz qanunları olduğunu bilirik. Bu qanunların "qanunverici orqanı" ailədirsə, ata, anadırsa, deməli, onları biz formalaşdırırıq. Övladımıza verdiyimiz yaxşı və pis nə varsa, zaman onu bizə artıqlaması ilə qaytaracaq, elə övladımız vasitəsilə.

Tez-tez eşitdiyimiz bir fikri bu məqamda yada salsaq yaxşı olar: "Valideyn məsuliyyəti". Bu məsuliyyəti hiss etmək və ona uyğun davranmaq özü də vətənpərvərlikdir. Valideynlərin hansı sahədə çalışmasından asılı olmayaraq, onlar vəzifə borclarından əvvəl valideynlik borcunu icra etməklə, ilk növbədə, övladlarının tərbiyəsi ilə məşğul olmalıdırlar. Hələ körpə yaşlarından bizim bir şirin təbəssümümüzə möhtac olan övladımıza laqeydlik və etinasızlıq göstərmək gələcəyin barlı-bəhərli bir meyvə ağacına balta çalmaqdır. Bu mənada atalarımız demişkən, "bağa baxarsan, bağ olar". Bir fidanın böyüyüb bar verməsi, qollu-budaqlı ağac olması üçün ona bir bağbanın mehri gərəkdir. Deməli, övladımızın gələcək xoş günü, onun cəmiyyətdə yeri, ailədə rolu, xalqa xidməti bizim ona bugünkü münasibətimizin son nəticəsidir desək, yanılmarıq.

2012-ci il muxtar respublikamızda Ali Məclisin Sədri tərəfindən "Milli dəyərlər ili" elan olunmuşdu. Çoxları, bəlkə də, bunu olduğu qədər, dəyərincə qiymətləndirə bilmirdi. Amma bu gün cəmiyyətimizdə və bütün dünyada baş verən proseslər onu göstərir ki, qarşımıza çıxan çox böyük mənəvi problemlərin kökündə milli dəyərlərimizin dəyərdən düşməsi dayanır. Hər birimizə məlumdur ki, yaşadığımız cəmiyyətin fərdləri olan qadınların və kişilərin iştirakı ilə yaranan ailələr artıq "oyuncağa" çevrilib. "Yar yardan küsür", atalar və analar bir-birinə düşmən kəsilir, var-dövlət mübahisəsi başlanır. Rütbə, mənsəb, vəzifə hərisləri şəxsi məqsədlərlə qurduqları ailələrdə yerində olmayan ata və ya ana olduqda, o ailədə dünyaya gəlmiş körpələrin üzündən təbəssüm silinir. Bəlkə də, dünyanın ən böyük dərdi budur – körpələrin üzündəki təbəssümün yerini yaşından böyük qəhər tutur. Onların körpə qəlbi zaman-zaman qaba sözlə, ədalətsizliklə, yersiz bir hərəkətlə sərtləşir, inadlaşır. Böyüdükcə o inadkarlıq qəddarlığa, o kədər nifrətə çevrilirsə, o övladın öz ailəsinə, ata-anasına, dövlətinə, Vətəninə verəcəyi yalnız qəm-kədər, dərd-bəla ola bilər. Ona "vətənpərvər, vətəndaş ol" deməklə heç nəyə nail ola bilmərik. "Daldan atılan daş topuğa dəyər", – deyib atalarımız. Deməli, gələcəkdə cəmiyyətin üzvü olacaq bu gənc xalqına və millətinə fayda verə bilməz. Çünki o, cəmiyyətin bir fərdi olaraq ictimai həyatdakı yerini belə, müəyyən etmək iqtidarında olmayacaq. Bu ruhda böyümüş gəncə, yeniyetməyə "vətənpərvər ol, vətəndaş ol, yaxşı insan ol" deməklə nəyəsə nail olmaq mümkündürmü?

**Şəhla NƏBİYEVA**

Yeni nəşrlər

# Naxçıvanda neft varmı?

## Muxtar respublikanın geologiyasına, neft-qazlılıq perspektivliyinə həsr olunmuş dəyərli kitab bu suala aydınlıq gətirir




***Çoxsaylı əsərlərindən birini yazıb qurtardıqdan sonra "Bu gün mən növbəti kitabımın taleyini insan laqeydliyinin ixtiyarına buraxıram", – deyən Don Migel Unamunonun fikrində nə qədər haqlı olduğunu qiymətləndirməkdə çətinlik çəksəm də, D.M.Yusifov və R.R.Rəhmanovun "Naxçıvan Muxtar Respublikasının neft-qazlılıq perspektivliyi" kitabına laqeyd qalmaq, ən azından, ədalətsizlik olardı. Bu kitab muxtar respublikanın geologiyasına və təbii ehtiyatlarına həsr olunmuş əsərlər arasında Ş.Əzizbəyovun məlum fundamental monoqrafiyasından (Ш.А.Азизбеков. Геология Нахичеванской АССР. Москва, 1961.502 стр.) sonra öz dəyərinə görə ikinci yeri tutmağa ən layiqli əsərdir.***

Uzun illər muxtar respublika ərazisində aparılan geoloji kəşfiyyat işləri, əsasən, faydalı qazıntı yataqlarının axtarışı ilə bağlı olmuş, burada 250-dən artıq mineral su bulağı, zəngin dağ-mədən yataqları (travertin, mərmər, arsen, gips, mis-porfir, kobalt, qızıl, sürmə, polimetal, kükürd) aşkarlansa da, Naxçıvanın neft-qazlılıq perspektivliyinin araşdırılması zəif olmuşdur. İran və Türkiyənin neftli-qazlı əyalətləri ilə qonşu olması, kəsilişində böyük qalınlığa malik Paleozoy və Mezo-Kaynozoy yaşlı çökmə süxurların mövcudluğu bu bölgəni neft-qazlılığı güman olunan ərazi kimi düşünməyə imkan verir.

Bu problemə həsr olunmuş çoxlu sayda ədəbiyyat materiallarını saf-çürük etməklə indiyə qədər məlum olanların işığında şəxsi araşdırmalarını çox oxunaqlı və yüksək elmi səviyyədə təqdim etmək bacarıqları müəlliflərin çox ciddi uğurları kimi dəyərləndirilməlidir. Faktların interpretasiyası müəlliflərin analitik qabiliyyətlərinin zənginliyindən, bilik və maraq dairələrinin çoxşaxəli və rəngarəngliyindən, praktik səriştələrinin yetkinliyindən xəbər verir.

Naxçıvan Muxtar Respublikası ərazisində müəyyən həcmdə geoloji axtarış işlərinin aparılmasına baxmayaraq, burada geniş intişar edən Mezo-Kaynozoy və həmçinin Üst Paleozoy yaşlı (devon, karbon, perm) çöküntülərin neft-qazlılıq perspektivliyinin öyrənilməsi aktualdır. Bununla belə, burada qazılmış azsaylı axtarış quyularının nəticələri göstərir ki, ərazidə perspektivlik baxımından Mezozoy və Üst Paleozoy rezervuarları daha çox maraq doğurur.

Bölgənin geologiyası, neft-qazlılığı ilə bağlı müəlliflərin təqdim etdikləri ümumi mənzərə aşağıdakı kimidir.

Neft-qazlılığın əsas amillərinin (litofasial, struktur-tektonik, geokimyəvi) öyrənilməsi ərazidə mümkün neft-qaz əmələgəlmə zonalarını müəyyən etməyə və perspektivliyini qiymətləndirməyə imkan verir. Devon çöküntülərinin Ural və Volqaarası ərazilərdə, eləcə də bir sıra digər ölkələrdə böyük neft və qaz ehtiyatlarına malik olması muxtar respublika ərazisində də bu çöküntülərə marağın əsasında dayanır. Ordubad rayonu və Nehrəm dərəsi sahələrində litoloji tərkibi mergel, gil, alevrolit və qum daşları ilə təmsil olunan alt yarımmərtəbənin çöküntüləri neft-qazlılıq baxımından daha çox maraq doğurur.

Əsərdən öyrənirik ki, muxtar respublika ərazisində quyu və yerüstü çıxışlarda öyrənilən ən qədim çöküntü kompleksi devona aid olmaqla, bu çöküntülər bitumla zəngindir (təxminən 0,04 faiz). Devon çöküntülərinin kollektor (toplayıcılıq) xassələrinin qənaətbəxş olmasını əhəngdaşı və gilli şistlərin bitumlu olması faktı da təsdiq edir. Paleozoy çöküntüləri içərisində neft-qaz əmələgəlmə və toplanma zonalarının mümkünlüyü baxımından Perm çöküntülərinin yerüstü çıxışlarda (Payadərə, Baysal, Qaraultəpə, Keçəltəpə) qumlu-dolomitli-əhəngdaşlı litofasiyadan ibarət olduğu başdan-başa neftli dəstələrə xas olan tündrəngli (bəzən qaraya qədər) gilli bitum, silisiumlu bitum və şistli bitumlu əhəngdaşların varlığı ilə təsdiqlənir. Perm çöküntülərinin belə litofasiyası və bitumluluğu onların neftli-qazlı olmasını düşünməyə əsas verir. Axura-Dəstə yaşayış məntəqələri arasındakı və Arpaçayın aşağı axarından Culfa şəhərinə qədər yerləşən zonada Perm çöküntüləri mümkün neftli-qazlı ərazi kimi maraq doğurur.

Əlincə-Naxçıvan çayları arası ərazidəki Orta Eosen çöküntüləri də neft-qaz yataqlarının axtarışı üçün yararlı obyekt ola bilər. Çöküntütoplanma hövzəsinin maksimal qalınlığa malik zonası (2,0-2,2 km) Əlincəçay hövzəsində yerləşən Qazançı kəndindən başlayaraq Ordubad və Dəstə yaşayış məntəqələri arasından keçməklə İran ərazisinə doğru uzanır.

Neft və qazın üzvi yolla əmələ gəlməsi nəzəriyyəsi baxımından bu və ya digər stratiqrafik intervalın neft-qazlılıq perspektivliyini əsaslandırarkən, ilk növbədə, uyğun çöküntütoplanma hövzəsi daxilində neft-qaz əmələgəlmə və toplanmanın baş verməsi üçün əlverişli geoloji-geokimyəvi şəraitlərin mövcudluğunu araşdırmaq lazım gəlir. Çöküntü kompleksində üzvi maddələrin toplanması, onların karbohidrogenlərə çevrilməsi, miqrasiyası, neft-qaz yataqlarının əmələ gəlməsi və saxlanılması üçün əlverişli şərait sedimentasiya hövzəsinin fasilələrlə, davamlı və uzun geoloji müddətdə çökməsi ilə izah oluna bilər.

Üst Tabaşir çöküntülərinin litofasial, struktur-tektonik xüsusiyyətləri, paleotektonik, geokimyəvi və hidrogeoloji şəraitlərin kompleks araşdırılma nəticələri göstərir ki, kəsilişdə iştirak edən Turon, Kampan və Maastrixt çöküntüləri neft-qazlılıq cəhətcə daha çox perspektivli ola bilərlər.

Turon çöküntülərinin neft-qazlılıq perspektivliyini qonşu neftli-qazlı dövlətlərdə eyniyaşlı çöküntülərdən sənaye əhəmiyyətli neftin alınması da təsdiq edə bilər. Belə ki, Türkiyənin Diyarbəkir depressiyasında Turon mərtəbəsinin analoqu olan Mardin lay dəstəsinin dolomitləşmiş əhəngdaşlarından sənaye əhəmiyyətli (Selmo, Raman, Harzan yataqları) neft alınmışdır. İranın cənub-qərb hissəsində geniş yayılan Turonun mergelli əhəngdaşları da sənaye əhəmiyyətli neftli-qazlıdır.

Ağrıdağ çökəkliyinin Qarabağlar sahəsindəki quyuda olan 1284-2090 metr intervalında Turon əhəngdaşlarında neft-qaz əlamətləri qeydə alınmışdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikası ərazisində Turon rezervuarları axtarış obyektləri, Turonun kəsilişində iştirak edən qalın gil və argillit layları mümkün neft-qaz yataqlarının saxlanmasında qoruyucu süxur örtüyü rolunu oynaya bilərlər.

Üst Tabaşirin sedimentasiya hövzəsində neft-qaz əmələgəlmə zonası şimal-qərbdə Qahab qalxımından başlayıb, cənub-şərqdə Araz çayına qədər uzanaraq İran ərazisinə keçir. Üst Tabaşir çöküntüləri neft-qazlılıq perspektivliyinə görə dörd zonaya ayrılır. Birinci zonadakı Üst Tabaşir çöküntüləri qərbdə Qahab-Culfa, şərqdə isə regional dərinlik qırılması ilə hüdudlanır. Araz çayına qədər uzanan zonada Culfa, Yaycı, Dizə, Darıdağ, Qahab strukturu daha çox perspektivli güman olunur. İkinci zona birincidən qərbdə yerləşir və Nəzərabad, Çeşməbasar, Nehrəm sahələrindən Araz çayına qədər uzanır. Bu sahə də perspektivli zona kimi qəbul oluna bilər. Üçüncü və dördüncü zonalar isə neft-qazlılıq baxımından perspektivli hesab olunmurlar.

Paleozoy və Mezo-Kaynozoy çöküntülərinin mümkün neft-qazlılıq perspektivliyinin kompleks qiymətləndirilməsi üçün müəlliflər dörd təkliflə çıxış edirlər:

*1. Qahabdan Azaya qədər uzanan zona boyunca (eni 10 km) ümumi dərinlik nöqtələri üsulu ilə dəqiq seysmik kəşfiyyat işlərinin aparılması;*

*2. Naxçıvan və Culfa qalxımları arasındakı Araz çayı boyu dəqiq qravimetrik və seysmik ölçmələrin aparılması;*

*3. Üst Paleozoy və Alt Mezozoy çöküntülərinin kəsilişini və neft-qazlılığını öyrənmək məqsədilə layihə dərinliyi 2800 metr olan axtarış quyusunun yüksək amplitudalı (300 metr) Qıvraq-2 qalxımının tağ hissəsində qazılması;*

*4. Üst Tabaşir və Eosen kəsilişinin neft-qazlılığını öyrənmək üçün Culfa-2 qalxımında layihə dərinliyi 2500 metr olan kəşfiyyat quyusunun qazılması.*

Kitabla tanışlıqdan sonra Yer təkinin əsrarəngiz arxitekturasının formalaşmasında bənzərsiz rolu olan neftin sehrli yaranma dünyasına düşür, bu dünyanın gözəlliklərini duyub yaşamağa məhkum olursan. Milyon illər təbii proseslərlə formalaşan və qeyri-adi cazibəsi ilə saysız-hesabsız mütəxəssisi, maqnatı, siyasətçini özünə cəlb edən, kiminə gözyaşı, səfalət, kiminə miqdarı bilinməyən sərvət gətirən bu "qara qızıl" adlı nəsnə dünyanın müxtəlif nöqtələrində onun yeni yataqlarının axtarışına başlamaq komandası gözləyir. Çox sevindirici haldır ki, bu komandanın, belə demək mümkünsə, siqnalı bizim diyarımızda da eşidilməkdədir. Biz, hələlik, aşılması çətin olan dağın ətəklərindəyik. Lakin Azərbaycanın bugünkü iqtisadi durumu qarşımızdakı dağı uğurla aşacağımıza zəmanət verir. Naxçıvan neftinin bölgənin insanlarına daha artıq rifah, xoşbəxtlik gətirəcəyi gün isə uzaqda deyil.

Bu gün əksər dünya ölkələrində Yer təkinin kəşfiyyatı ya yerli, ya da xarici şirkətləri cəlb etməklə həyata keçirilir. Geoloji kəşfiyyat ilbəil daha yüksək texnoloji yönləri ilə Yerin daha dərin qatlarına nüfuz etməklə bu sahənin mütəxəssislərini belə, heyrətləndirir. Ekologiyanın korlanmasına səbəb seysmokəşfiyyatın partlatma metodları artıq öz yerini silkələmə (vibrasiya) və impuls metodlarına güzəştə getməkdədir. Bu üsulla aparılan kəşfiyyat işlərində quyuda çox güclü silkələnmə yaratmaqla yüksək dəqiqliyə malik qəbuledici cihazlar vasitəsilə yeraltı strukturun reaksiyası və bununla da, faydalı qazıntıların həmin obyektdə olub-olmadığı müəyyən edilir. Hazırda çox sadə sistem hesab olunan 2D seysmik sistemi yerini daha dəqiq və etibarlı üçölçülü 3D sisteminə güzəştə getməkdədir.

***İnanırıq ki, Azərbaycan neft kəşfiyyatçıları da arsenallarında olan bu metodlardan istifadə etməklə Naxçıvanın neftli-qazlı güman olunan sahələrində kəşfiyyat işləri aparmaqla daha dəqiq nəticələrə imza atacaqlar.***

**Əliəddin ABBASOV**
***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun direktoru, kimya elmləri doktoru***

# Xocalı faciəsi bəşəriyyətin faciəsidir



***Dünən Naxçıvan Şəhər Polis İdarəsində Xocalı faciəsinin 22-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.***

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayev çıxış edərək bildirmişdir ki, Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifəsidir. Tariximizə ən dəhşətli faciə kimi daxil olan Xocalı faciəsi haqqında ümummilli lider Heydər Əliyev demişdir: ***"Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağılasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir"***.

Təəssüf ki, 1993-cü ilə qədər Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi istiqamətində heç bir tədbir görülməmişdir. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Eyni zamanda Xocalı soyqırımının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Bildirilmişdir ki, bu gün Xocalı həqiqətlərinin dünyaya çatdırılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində görülən işlər ardıcıl xarakter daşıyır.

Sonda tədbir iştirakçıları Xocalı soyqırımına həsr olunmuş kitab, qəzet və jurnalların nümayiş etdirildiyi sərgiyə baxmışlar.

**Kərəm HƏSƏNOV**

# Birgə layihənin icrasına başlanılıb

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda dünya əhalisinin 350 milyonu hepatit B virusu və 170-220 milyonu hepatit C virusu ilə yoluxmuşdur. Hər il bu xəstələrin sayı 3-4 milyon artmaqdadır. Müəyyən olunmuşdur ki, xroniki infeksiyalaşmış şəxslərdə ilk illər xəstəliyin əlamətləri özünü göstərmir. Virusun vaxtında tapılması bu virusla müalicəni düzgün aparmağa və yoluxmuş şəxsin həyatını xilas etməyə imkan verir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi bu mühüm problemi nəzərə alaraq, Bakı şəhərində fəaliyyət göstərən "Roche Azerbaijan" MMC ilə cari ildə "Virus hepatiti C və B ilə mübarizə" adlı birgə layihə həyata keçirəcəkdir. Layihə hepatit C və B viruslarının hər hansı diaqnostik metodu ilə təsdiq edilmiş diaqnozu ilə, özlərini hepatit C və B virusları ilə yoluxmasına şübhəli sayan və qaraciyər nahiyəsində problemi olan insanları əhatə edəcəkdir. Məqsəd hepatit C və B virusları diaqnozu ilə təsdiq edilmiş xəstələrin müalicəni başlamaq ehtiyacını qiymətləndirmək və ehtiyac olduğu halda müvafiq müalicə taktikasının tətbiqi üçün göstərişlər verməkdən ibarətdir.

İlkin mərhələdə isə əsas diqqət əhalinin bu sahədə maariflənməsinə yönəldilmişdir. Bu məqsədlə Qaraciyər Tədqiqi üzrə Avropa Assosiasiyasının daimi üzvü, "EuroMed" klinikasının həkim-infeksionisti Yusif Alxazov Naxçıvana gəlmiş, layihə çərçivəsində maarifləndirici tədbirlərin icrasına başlamışdır.

Aprel ayının ikinci yarısında start götürəcək ikinci mərhələ çərçivəsində yüksək ixtisaslı mütəxəssislərlə pasiyentlərin görüşünün keçirilməsi, onların müayinə və müalicəsinin təşkili üçün müvafiq göstərişlərin verilməsi nəzərdə tutulmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaran vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində dərzi peşəsi üzrə kurs keçməyə dəvət edir. Tədris müddəti 3 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2014-cü il martın 1-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

## İtmişdir

Quliyev Əbülfəz Aman oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

## Allah rəhmət eləsin

"Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Səxavət Abbasov və birliyin kollektivi Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Aytəkin Qəhrəmanova və kitabxananın kollektivi Əşrəf və Ruhin Nəcəfovlara, əzizləri **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aybəniz Babayeva və şöbənin kollektivi Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhər 3 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Günay Əliyeva və məktəbin kollektivi Əşrəf Nəcəfova, atası **MUSA NƏCƏFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Turist-Diyarşünaslıq Mərkəzinin direktoru Tahirə Abbasova və mərkəzin kollektivi iş yoldaşları Firuzə Abdullayevaya, anası **NÜBAR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivləri iş yoldaşları Gültəkin Süleymanovaya, atası **SƏDRƏDDİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

***Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Elnur Kəlbizadə**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 212**